# BAKI DÖVLƏT UNİVERSİTETİ

## 2021-ci ildə Sosiologiya kafedrasında elmi plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələrinin

# HESABATI

**Mövzunun adı:** **«Sosial təhlükəsizlik probleminin nəzəri-metodoloji əsasları və onun qloballaşma mühitində yeri və rolu»**

**Mövzu rəhbərinin soyadı, adı və atasının adı:** **Həsənov Rəfail Musa oğlu**

**Mövzunun icra müddəti (başlama və bitmə tarixi):** **01 yanvar 2021-ci il - 01 yanvar 2022-ci il**

**Bakı - 2021**

**Mövzu üzrə icraçılar haqqında məlumat (icraçılar, birinci mövzu rəhbər yazılmaqla):**

| | Soyadı, adı, atasının adı | Təvəllüd | Struktur | Vəzifəsi | Ştat vahidi | Elmi adı və dərəcəsi |
|---|---|---|---|---|---|---|
| 1. | Həsənov Rəfail Musa oğlu | 12.11.1962 | Sosiologiya kafedrası | Kafedra müdiri | 0,5 | Professor, sosiologiya üzrə elmlər doktoru |
| 2. | Əzimov Kazım Ağamirzə oğlu | 10.02.1951 | Sosiologiya kafedrası | professor | 1 | Professor, fəlsəfə üzrə elmlər dokrotu |
| 3. | Ağayev Tahir Bayram oğlu | 18.10.1956 | Sosiologiya kafedrası | dosent | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 4. | Cavadova Hörmət Qənbərəli qızı | 22.05.1953 | Sosiologiya kafedrası | dosent | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| 5. | İsmayılova Sevil Aydın qızı | 30.09.1967 | Sosiologiya kafedrası | dosent | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru |
| | Əliyeva Yaqut Nadir qızı | 27.03.1973 | Sosiologiya kafedrası | dosent | 1 | Dosent, sosiologiya üzrə fəlsəfə doktoru |
| | Xəlilova Fərəh Rəhman qızı | 24.08.1976 | Sosiologiya kafedrası | Müəllim | 1 | Sosiologiya üzrə fəlsəfə doktoru |
| | Haşımova Südabə Söhrab qızı | 14.06.1973 | Sosiologiya kafedrası | Müəllim | 1 | ----- |

| 1 | **Mövzu və mövzu üzrə cari ildə yerinə yetirilmiş elmi işlər**<br>*Plan üzrə hər bir mövzunun, hər bir elmi tədqiqat işinin aktuallığı,məqsədi və alınmış elmi nəticələr ayrılıqda göstərilməli, ad soyad tam yazılmalıdır.* |
|---|---|
| | **Mövzunun adı:** «Sosial təhlükəsizlik probleminin nəzəri-metodoloji əsasları və onun qloballaşma mühitində yeri və rolu»<br>**Mövzunun aktuallığı və məqsədi:** Qloballaşma mühitində yeni çağırışlar və təhdidlər sosiologiyada elmi istiqamətin - təhlükəsizlik sosiologiyasının inkişafını tələb edir ki, bu da cəmiyyətin təhlükəsiz inkişafının sosial təhlükəsizliyin sistem formalaşdıran aspekti olduğunu düşünməyə əsas verir.Sosioloji kateqoriya kimi “sosial təhlükəsizlik” anlayışında baş verən dəyişikliklər ilk növbədə dəyər oriyentasiyalarının və əxlaqi münasibətlərin dəyişməsi ilə bağlıdır ki, bu da təbii ki, fərdin və cəmiyyətin sosial təhlükəsizliyinin yaxşılaşdırılmasına birbaşa təsir göstərir. Nəzərdən keçirilən fenomeni izah etmək üçün elmi yanaşmalar ən çox sosial dəyişikliyin sosioloji nəzəriyyələrində və risk nəzəriyyələrində təmsil olunur. Onlar sosial təhlükəsizliyi müəyyən edən parametrlərin əlaqəsini və qarşılıqlı asılılığını üzə çıxarır. Tədqiqat işlərində bu kimi məsələlərin araşdırılması əsas məqsədlər kimi qarşıya qoyulmuşdur.Sosial təhlükəsizlik problemlərinin, xüsusən də onun əhalinin müxtəlif kateqoriyaları tərəfindən dərk edilməsi ilə tədqiqi göstərir ki, təhlükəsizlik sosiologiyası elə cəmiyyətin təhlükəsiz inkişafı nəzəriyyəsinə əsaslanmalıdır.<br><br>**Elmi tədqiqat işi 1. Müasir Azərbaycan cəmiyyətində sosial təhlükəsizliyin aspektləri və müllitəhlükəsizliklə qarşılıqlı əlaqəsi**<br>**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: Sos.ü.e.d.,prof. Rəfail Həsənov**<br>Sosial təhlükəsizlik milli təhlükəsizliyin təminatının mərkəzi məsələlərindəndir. Sosial təhlükəsizlik əhalinin sosial və əmlak bərabərsizliyi səviyyəsinin azalması, demoqrafik vəziyyətin yaxşılaşdırılması, işsizliyin aradan qaldırılması, inflyasiyanın azalması, əlverişli və keyfiyyətli təhsil və səhiyyə xidmətləri ilə təmin olunması və s. daxil olmaqla spesifik parametrlərin əldə edilməsini əhatə edir. Bütün bu parametrlər həyat keyfiyyəti anlayışını ifadə edir və onun səviyyəsi sosial təhlükəsizliyin real vəziyyətini əks etdirir.<br>**Aktuallığı:** Milli təhlükəsizlik nəzəriyyəsi xüsusi təhlükəsizlik nəzəriyyələrinin inkişafı və ya ən azı reallığın müxtəlif sahələri üzrə müvafiq tədqiqatların təşkili üçün başlanğıc nöqtəsi və metodoloji əsas kimi çıxış edir. Müasir Azərbaycanda sosial təhlükəsizlik yalnız ona nail olmaq üçün aparılan siyasət, dövlət və cəmiyyətin məqsədyönlü fəaliyyəti nəticəsində təmin oluna bilər. Dünya bazarında bərabər imkanların deklarativ prinsipinə baxmayaraq, yarım-periferik və periferik dövlətlər müasir dünya iqtisadiyyatına inteqrasiya prosesində real məhdudiyyətlərlə üzləşirlər ki, bu da siyasi asılılığa çevrilən iqtisadi və sosial bərabərsizliyin artmasına gətirib çıxarır.Belə şəraitdə dövlətlərin milli təhlükəsizliyinin təmin edilməsi sahəsində siyasəti “oyun qaydalarının” unifikasiyası istiqamətində qlobal tendensiyadan fərqli olaraq, onların iqtisadi cəhətdən özlərini təmin etmələrinə (mümkün hədlər daxilində), mədəni və tarixi identikliyini qorumağa yönəldilməsi xüsusi aktuallıq kəsb edir.<br>**Məqsədi**: Sosial təhlükəsizliyin Azərbaycan cəmiyyətində həyatın müxtəlif aspektlərində kompleks tədqiqi.<br>**Alınmış nəticələr:** Qloballaşma prosesləri beynəlxalq, milli və regional səviyyədə təhlükəsizliyin qarşılıqlı asılılığını artırır. Nəticədə insan, cəmiyyət və təbiətin vəhdətini, həmçinin ümumi qlobal təhlükəsizlik problemlərinin və bütün dünya üçün əsas olan “oyun qaydaları”nın vəhdətini dərk etmək zərurəti yaranır. |

| | |
|---|---|
| | **Elmi tədqiqat işi: 2– Sosial elmlərdə interdisiplinar tədqiqat metodunun aktuallığı və əhəmiyyəti**<br>**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: Fəl.ü.e.d., prof. Kazım Əzimov**<br>**Aktuallığı:** Müasir fənlərin meydana gəlməsinin tarixi şəraiti, formalaşması, yüksəlişi və fənlərarası (interdisiplinar) tədqiqat sahəsinin ortaya çıxması xüsusi aktuallıq kəsb edir. Fənlərin müxtəlif elementləri, paradiqmal inkişafı müəyyənləşdirilmiş, onların epistemeloji, sosial, mədəni və təşkilat aspektləri elmi cəmiyyət (institutu) qismində nəzərdən keçirilir. Fənlərin qarşılıqlı əlaqələri və təsirləri əsasında ümumi interdisiplinar kategoriya (sinfinə) daxil olan anlayışların yaranması, nəzəriyyəsi və təcrübəsi ətraflı müzakirə edilməsilə müəyyənləşdirilir. Tədqiaqat işində interdisiplanar elmi yanaşma paradiqmasının nüvəsini təşkil edən metodologiyaların, fərziyyələrin, nəzəriyyələrn, epistemologiyaların, ontologiyaların və perspektivlərin sistemli şəkildə öyrənilməsi zəruridir.<br>**Məqsədi:** Sosial elmlərdə interdisiplinar tədqiqat metodunun aktuallığı və əhəmiyyətini araşdırmaq.<br>**Alınmış nəticələr** Tədqiqatın gəldiyi ümumi nəticə bundan ibarətdir ki, XXI əsrdə ali təhsil sistemində tədris və təlimin yeni paradiqması – interdisiplinar paradiqmanın formalaşdırılması və tətbiqi zamanın sosial, mədəni və iqtisadi tələblərindən irəli gəlir.<br><br>**Elmi tədqiqat işi**:**3 Sosiologiyada " sosial institut" anlayışının müqayisəli təhlili**<br>**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: Fəl,ü.f.d., dos. Tahir Ağayev**<br>**Aktuallığı**: Cəmiyyət sosial əlaqələrsiz və qarşılıqlı təsirsiz mövcud ola bilməz. Belə əlaqə və təsir cəmiyyətin və fərdin ən mühüm tələbatlarını ödəyir. Hər bir cəmiyyətdə sosial əlaqə və münasibətlərin müəyyən davamlığını təmin edən spesifik bilik sahələri sosial institutlardır. Bu baxımdan tədqiq olunan problem ilk növbədə cəmiyyətdə sabitliyin və inkişafın qorunub saxlanılmasına, zəruri sosial nizamın təmin edilməsinə istiqamətləndiyi üçün aktual hesab oluna bilər.<br>**Məqsədi**: Sosial institutlarının tədqiqində ənənəvi institusional formalarla yeni yaranan sosial tələbatların müqayisəli təhlilini aparmaq, ümumi və fərqli cəhətlərini araşdırmaq<br>**Alınmış nəticələr** : Sosial institutlar insanların tarixən təşəkkül tapmış qarşılıqlı fəaliyyətinin formaları olub, istənilən cəmiyyətin yaşamaq qabiliyyətini müəyyən edirlər. Onların köməyi ilə cəmiyyətin sosial strukturu müəyyən zaman kəsiyində öz mövcudluğunu qoruyub saxlayır.Ona görə də, ictimai institutsuz heç bir müasir cəmiyyət fəaliyyət göstərə bilməz. Sosial institutlar cəmiyyətdə sivil qayda-qanunun və mütəşəkkilliyin simvoludurlar.<br><br>**Elmi tədqiqat işi: 4. Din sosial həmrəylik amili kimi**<br>**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: f.ü.f.d.,dos.Hörmət Cavadova**<br>**Aktuallığı:** Dinin əsasını təşkil edən inam minilliklər ərzində insanları birləşdirmiş, cəmiyyətin sabitləşməsində mühüm rol oynamışdır. İnamsız heç bir xalq və cəmiyyət ola bilməz.Dini inamlar minilliklər ərzində insanların fəaliyyətlərində yaranmış, tarix inkişaf etdikcə onların sosial-psixoloji əsasları dəyişikliyə məruz qalaraq yeniləşmişdir.<br>**Məqsədi:** Dinin cəmiyyət həyatında həmrəylik amili kimi səciyyələndirilməsi.<br>**Alınmış nəticələr**: İnsanlar arasında sosial həmrəyliyin yaranmasında dini mərasimlərin mühüm rolu vardır.Sözün geniş mənasında mərasim və ya ayin cəmiyyətdə və sosial qruplarda müəyyən sosial münasibətlər rəmzini bildirən adətlərin konkret icrası və möhkəmləndirilməsi formasıdır. |

**Elmi tədqiqat işi 5. Azərbaycan və Türkiyənin xeyriyyəçilik fəaliyyətinin müqaisəli təhlili. Türkiyənin xeyriyyəçilik fəaliyyətində vəqflərin yeri və rolu**
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: f.ü.f.d.,dos.Sevil İsmayılova**
**Aktuallığı:** Sosial dövlətin mühüm funskiyalarından biri də xeyriyyəçilik fəaliyyətinin genişləndirilməsidir.Bu baxımdan Azərbaycan və Türkiyənin xeyriyyəçilik fəaliyyətinin müqaisəli təhlili və tədqiqi zəruridir.
**Məqsədi:** Türkiyənin xeyriyyəçilik fəaliyyətində vəqflərin yerini göstərmək və rolunu araşdırmaq.
**Alınmış nəticələr:** Turkiyədə vəqflər sosial siyasətin mühüm amili olublar, bir tərəfdən xeyriyyəçilik fəaliyyəti göstəriblər, digər tərəfdən isə sosial inteqrasiya funksiyasını yerinə yetiriblər. Birinciyə mədəniyyət, təhsil, bələdiyyə quruculuğu, sosial proqramların həyata keçirilməsi sahəsində vəqflərin ictimai faydalı fəaliyyətinin bütün spektri daxildir. İkincisinə isə, onların gəlirlərinin davamlı olaraq yenidən bölüşdürülməsi yolu ilə sosial gərginlik səviyyəsinin azaldılması, yeni ərazilərdə dövlətə münasibətdə yerli əhali arasında rəğbət oyatmaq istəyi, nəhayət, əlverişli sosial mühitin formalaşdırılması və miqrasiya proseslərini və əhalinin demoqrafik artımını müəyyən edən iqtisadi iqlimin yaradılmasıdır.

**Elmi tədqiqat işi 6. Uşaqlar cəmiyyətin sosial qrupu kimi: sosial-demoqrafik amillərin sistemli təhlili**
**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: s.ü.f.d.,dos.Yaqut Əliyeva**
**Aktuallığı:** Uşaqlar 0-18 yaş arasında cəmiyyətin ilkin sosial-demoqrafik qrupudur. Uşaqların xüsusi ehtiyacları, hüquqları və maraqları var. Amma eyni zamanda, onlar özlərini cəmiyyət qarşısında müdafiə etmək və qorumaq üçün kifayət qədər səriştəli deyillər. Uşaqlar dövlətin, cəmiyyətin, məktəbin və ailənin onların inkişafı üçün təmin etdiyi şəraitdən asılıdır. Onlar sosial nəvaziş obyektləridir.

Uşaqların şəxsiyyətinin formalaşması və inkişafı prosesinin optimallaşdırılması problemi dövrümüzün fundamental, prioritet və aktual sosial problemlərindən biridir. Bu proses həm şəxsiyyət, həm də cəmiyyətin sosial səriştəsinin formalaşması üçün mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, qloballaşma şəraitində uşaqların şəxsiyyətinin formalaşması və inkişafı probleminin təhlili həm nəzəri, həm də praktik baxımdan olduqca aktualdır.
**Məqsədi:** İşin məqsədi uşaqlarin cəmiyyətin sosial-demoqrafik qrupu kimi öyrənilməsinin nəzəri-metodoloji aspektlərini araşdirmaq, burada uşaqlıq sosiologiyasının və digər elmlərin xüsusi yerini və rolunu göstərmək, uşaqların yaş və cins xarakteristikasını, ümumi və spesifik məqamlarını və onların xüsusiyyətlərini sistemli olaraq araşdırmaqdan ibarətdir.
**Alınmış nəticələr:** Maddi və mənəvi həyatda baş verən dəyişikliklər Azərbaycan cəmiyyətinin sosial dəyərlərə, ailəyə baxışlarını dəyişdirdi ki, bu da öz növbəsində uşaqların tərbiyəsi və formalaşmasında özünü göstərir. Həyatın sosial-iqtisadi şərtlərinin transformasiyası, qloballaşma prosesinin problemləri, gəlirlərin qütbləşməsi və s. cəmiyyətin dərin bir şəkildə differesiasiyasına gətirib çıxartdı. Bir tərəfdən hələ ki, uşaqların yüksək keyfiyyətli təkrar istehsalı, tərbiyəsi və inkişafı üçün kiçik bir əlverişli mühitin formalaşmasına, digər tərəfdən isə ümumi ziddiyyətli bir vəziyyət indiyədək nail olunanların məhv edilməsinə səbəb oldu.

Təhsil sisteminin ümumbəşəri mənəvi, milli, dini dəyərlər vasitəsilə intensivləşdirilməsi zəruridir, çünki cəmiyyətin gələcəyi uşaqların bu günki vəziyyətindən və onların bir şəxsiyyət kimi formalaşmasından asılıdır.

**Elmi tədqiqat işi 7. Beynəlxalq hüquq sosial institut kimi**

| | |
|---|---|
| | **Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: s.ü.f.d. Fərəh Xəlilova**<br>Elmi-tədqiqat işində beynəlxalq hüquq institutunun mahiyyəti və məzmunu təhlil olunur, müasir dünyada qlobal dəyişikliklər şəraitində beynəlxalq hüquq institutunun yeri və rolu araşdırılır.<br>**Aktuallığı:**Müasir dünyada baş verən qlobal transformasiyalar və bununla bağlı meydana çıxan effektlər bu proseslərin idarə olunması məsələsini və beynəlxalq hüquq ilə bağlı problemləri olduqça aktual edir. Sosial reallıq təcrübəsi onu göstərir ki, cəmiyyətdə birgə yaşayış müəyyən davranış standartlarının və normaların formalaşması və reallaşmasına gətirib çıxarır. Sosial interaksiya çoxşahəli və çoxsəviyyəli sistem olduğundan bu normalar insanlararası interaksiyanın müxtəlif səviyyələrində özünü göstərir. Bu səviyyələrdən biri də beynəlxalq səviyyədir. Beynəlxalq münasibətlərin tənzimləyicisi kimi çıxış edən beynəlxalq hüquq mövcud şəraitdə dünyada baş verən dəyişiklikəri və sosial reallığın transformasiyasını nəzərə alıb, müvafiq olaraq inkişaf etməlidir. Beynəlxalq hüquq institutunun inkişafı insanlararası münasibətlərin optimallaşması və insanlararası həmrəyliyin artmasının əsas istiqamətlərindən biridir. Beynəlxalq hüquq bu prosesin hüquqi əsasını təmin edən başlıca amildir.<br>**Məqsədi:**Beynəlxalq hüquq fenomeninin mahiyyətini, onun sosial təbiətini təhlil etmək, sosial münasibətlərin meqasəviyyəsinin idarə olunması zərurəti və bununla bağlı beynəlxalq hüququn rolunu araşdırmaq.<br>**Alınmış nəticələr:** 1.Sosial münasibətlərin meqasəviyyəsinin idarə olunması beynəlxalq hüquq institutunun formalaşması və inkişafını zəruri edir. 2.Qlobal transformasiyalar şəraitində mövcud problemlər və proseslərin idarə olunması və bununla bağlı beynəlxalq hüquq institutunun optimallaşdırılması məsələləri aktuallaşır. 3.Beynəlxalq hüquq institutunun inkişafı dünya səviyyəsində İnsanlararası münasibətlərin optimallaşması və insanlararası həmrəyliyin artmasının əsas istiqamətlərindən biri kimi çıxış edir.<br><br>**Elmi tədqiqat işi 8. Azərbaycan cəmiyyətində siyasi sosiallaşma prosesi: əsas istiqamətləri və xüsusiyyətləri.**<br>**Elmi tədqiqat işi üzrə çalışan əməkdaşlar: müəllim Südabə Haşımova**<br>**Aktuallığı:** Cəmiyyətin siyasi sosiallaşması istənilən dövlətin həyatında xüsusi yer tutur. Çünki xüsusi ictimai hadisə olmaq etibarilə, dövlət siyasəti insanların fəaliyyətinin ən əhəmiyyətli sferasıdır. Cəmiyyətin siyasi sistemdəki dəyişikliklərə təsir etmək qabiliyyəti həm dünya təcrübəsində, həm də Azərbaycan tarixində baş verən proselərlə dəfələrlə nümayiş etdirilmişdir. Azərbaycan cəmiyyətinin siyasi sosiallaşması vəziyyəti və perspektivlərini hərtərəfli öyrənməyə ehtiyac ictimai inkişafın müasir mərhələsində baş verən dəyişikliklərdə iştirak dərəcəsi ilə bağlıdır.<br>**Məqsədi:** Siyasi sosiallaşma probleminin öyrənilməsinin nəzəri-metodoloji əsaslarının araşdırılması<br>**Alınmış nəticələr:** Apardığımız tədqiqatın nəticələrinə görə, siyasi sosiallaşma vasitəsilə fərdlər cəmiyyətin siyasi dəyərlər sistemini və ideologiyasını mənimsəyir, simvollarını və rituallarını başa düşürlər. Siyasi sosiallaşma cəmiyyətin inkişaf səviyyəsindən və siyasi sistemin növündən asılı olaraq fərqli həyata keçirilir. Siyasi sosiallaşmanın formalaşması yalnız humanitar və siyasi təhsil sistemi ilə məhdudlaşmır, yeni sosiallaşma institutlarının yaradılmasını zəruri edir. |
| **2** | **Hesabat dövründə alınmış elmi nəticələr, onların yenilik dərəcəsi**<br>*Nəticələr səlis və konkret yazılmalıdır* |

| | |
|---|---|
| | -- Cəmiyyətimizdə düşünülmüş sosial siyasətin reallaşdırılması milli təhlükəsizliyin və onun bir elementi olan sosial təhlükəsizliyin möhkəmləndirliməsinin prioriteti sayıla bilər.Müasir Azərbaycanda sosial təhlükəsizlik yalnız ona nail olmaq üçün aparılan siyasət, dövlət və cəmiyyətin məqsədyönlü fəaliyyəti nəticəsində təmin oluna bilər.<br>- Sosial əlaqələrin formalaşması və inkişafı prosesi maddi, fizioloji və mənəvi sahədə sosial tələbat olmadan mümkün deyildir.Ənənəvi institutlar mərasimlərlə, qohumluq və qonşuluq münasibətləri ilə, müasir institutlar isə dövlət institutları ilə bağlıdır.<br>–1.Müasir dünyada sülhün və əmin-amanlığın bərqərar olunmasında din xadimlərinin üzərinə mühüm vəzifələr düşür.<br>**-** Dinlərarası sağlam dialoq qarşılıqlı etimadın artmasına, sülhün təşviqinə və barışa töhvə verər.<br>– Turkiyədə vəqflər sosial siyasətin mühüm amili olublar, bir tərəfdən xeyriyyəçilik fəaliyyəti göstəriblər, digər tərəfdən isə sosial inteqrasiya funksiyasını yerinə yetiriblər.<br>**-** Maddi və mənəvi həyatda baş verən dəyişikliklər Azərbaycan cəmiyyətinin sosial dəyərlərə, ailəyə baxışlarını dəyişdirdi ki, bu da öz növbəsində uşaqların (gənc nəslin) tərbiyəsi və formalaşmasında özünü göstərir.<br>Həyatın sosial-iqtisadi şərtlərinin transformasiyası, qloballaşma prosesinin problemləri, gəlirlərin qütbləşməsi və s. cəmiyyətin dərin bir şəkildə differesiasiyasına gətirib çıxartdı. Bir tərəfdən hələ ki, uşaqların yüksək keyfiyyətli təkrar istehsalı, tərbiyəsi və inkişafı üçün kiçik bir əlverişli mühitin formalaşması, digər tərəfdən isə ümumi ziddiyyətli bir vəziyyət indiyədək nail olunanların məhv edilməsinə səbəb oldu.<br>**-** Siyasi sosiallaşma tarixi təcrübə yolu ilə həyata keçirilir. Siyasi davranış və iştirakın köhnə modelləri çox vaxt yeni siyasi reallıqlara cavab vermir. Yeni modellər olduqca ləng formalaşır və mənimsənilir. Bu da öz növəsində siyasi təhsil problemini aktuallaşdırır: digər ölkələrin siyasi təcrübəsi ilə tanış olmaq və onu mənimsəmək, siyasi sistemlərin fəaliyyət xüsusiyyətlərini, onlara təsir etmə yollarını, şəxsi və qrup maraqlarını həyata keçirmək, xarici təcrübəni yerli ənənələrə uyğunlaşdırma imkanlarını öyrənmək tələb olunur. Siyasi sosiallaşmanın formalaşması yalnız humanitar və siyasi təhsil sistemi ilə məhdudlaşmır, yeni sosiallaşma institutlarının yaradılmasını zəruri edir. |
| **3** | **Hesabat dövründə alınmış ən mühüm elmi nəticələr**<br>*Ən mühüm nəticələr səlis və konkret yazılmalıdır* |
| | **Yoxdur** |
| **4** | **Mövzunun yerinə yetirilməsi zamanı istifadə olunan üsul(lar), cihaz(lar) və yanaşma(lar)** |
| | 1.Rəfail Həsənov- Təkrar təhlil metodu, statistik təhlil; struktur-funksionalist yanaşma<br>2. Yaqut Əliyeva - Tədqiqatda elmi biliklərin əsas metodlarından, o cümlədən induksiya, deduksiya, sistemli və fənlərarası analiz metodlarından, həmçinin müqayisə, analiz və sintez metodlarından istifadə edilmişdir.<br>3.Tədqiqatda elmi ədəbiyyatın, beynəlxalq hüquqi aktların, milli qanunvericiliyin, statistik məlumatların, İnternet resurslarının və s. nəzəri təhlilindən istifadə edmişdirdir. |
| **5** | **a) Mövzu üzrə beynəlxalq jurnallarda çıxan məqalələr**<br>*Müəlliflərin ad və soyadları, jurnalın adı tam şəkildə yazılmalı;*<br>*Dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilmişdir kimi göstərilməli;*<br>*Məqalələrin surətlərihesabata əlavə edilməli və mənbənin internetdəki linki göstərilməlidir* |
| | 1.**Sevil İsmayılova** -Благотворительные фонды в Азербайджане и перспективы их |

| | |
|---|---|
| | развития Results of Modern research on Development. Spain. Marid 2-4 may2021p.415-420<br>2. **Əliyeva Yaqut** - “Проблема оптимизации процесса формирования личности детей”. Collecion of scientifical works (based on materials of the X International scientific and practical conference, November 14-15, 2020.**“Labyrinths of Reality: Collection of scientifical works”** / edited by M. Zhurba. Montreal: CPM «ASF», NGO “Sobornist”, 2020. Issue 5(10). s.43-45. http://conference-ukraine.com.ua/en/scientific-collection/lor/ (məqalə) |
| | a) **Mövzu üzrə digər jurnallarda çıxan məqalələr**<br>*Müəlliflərin ad və soyadlarıı tam şəkildə yazılmalı;*<br>*Dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilmişdir kimi göstərilməli;*<br>*Məqalələrin surətləri hesabata əlavə edilməli və mənbənin internetdəki linki göstərilməlidir* |
| | 1. **Rəfail Həsənov** - Orta sinif post-sovet Azərbaycanının sosial strukturunda. Sosial tədqiqatlar. Elmi-analitik jurnal, 2021, Cild 1, №1, 117-130. (*Dərc olunmuşdur*) (məqalə)<br>2. **Rəfail Həsənov** - Sosiologiyada keys-stadi metodu: nəzəri-metodoloji təhlil. 2020. Əmək və sosial münasibətlər. 2 (14). Səh.4-14.(məqalə)<br>3. **Rəfail Həsənov** -Yeni koronavirus pandemiyası həyatımıza nə gətirdi və nə dəyişdi? Gələcək dünyanın təfərrüatları-19. Sosial. Psixoloji. Mədəni. Bakı-2020. Səh. 66-69. məqalə)<br>4. **Hörmət Cavadova** - G.A.Oliverin səyahətnaməsində İstanbul əhalisinin etnik və mədəni müxtəlifliyi haqqında” mövzusunda məqalə. BDU-nun Xəbərləri.Sosial-siyasi elmlər seriyası, səh.101-112<br>5. **Hörmət Cavadova** - İmportance of youth education. SCIENTIFIC WORK. International scientific journal With Impact Factor. Volume:15, Issue: 2, 2021, səh.24-27<br>6. .**Sevil İsmayılova** -Благотворительные фонды в Азербайджане и перспективы их развития Results of Modern research on Development. Spain. Marid 2-4 may 2021 p.415-420<br>7. **Haşımova Südabə** - 1. Şəxsiyyətin peşə müqəddəratının müəyyənləşdirilməsinə ailənin təsiri // – Bakı: Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, – 2019.№3,–s.70-74.http://static.bsu.az/w1/PDF2021%20elm/sosial-3-2019%201.pdf<br>8. **Südabə Haşımova** - Şəxsiyyətin peşə müqəddəratını müəyyənləşdirmənin bəzi nəzəri məsələləri // – Bakı: Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Elmi-praktiki jurnalı, Humanitar və sosial elmlər seriyası, – 2020. № 2 (14), – s.61-68. https:// www. aesma. edu. az / uploads/journal/8.pdf<br>9. Fərəh Xəlilova. Международное право и международная мораль в условиях глобализации // Sosial və humanitar elmlərin müasir problemləri (məqalə çapdadır**)** |
| **6** | **Mövzu üzrə monoqrafiyalar**<br>*Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı;*<br>*Monoqrafiyanı çap olunduğu və ya çapa göndərilməsi göstərilməli;*<br>*Monoqrafiyanınüz qabığı, titul vərəqi (monoqrafiyanın 1-ci və 2-ci səhifəsi), mündəricat və buraxılış məlumatlarının verildiyi səhifələrinsurətləri hesabata əlavə olunmalıdır.* |
| | **Yoxdur** |
| **7** | **Mövzu üzrə konfrans materialları**<br>*Müəlliflərin ad və familiyaları tam şəkildə yazılmalı;*<br>*Materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi qeyd olunmalı:,* |

| | |
|---|---|
| | *Materialların surətləri hesabata əlavə edilməli və mənbənin internetdəki linki göstərilməlidir* |
| | 1. **Rəfail Həsənov** - "Middle Class and Features of Its Formation in Azerbaijan". First International Social Sciences Congress. "The World in the Context of Economics, Politics and Environment in the 21st Century" Ufuk University. Ankara, Turkey. 8-14 February 2021. http://usbk.ufuk.edu.tr/eng/themes_and_topics.htm<br>2. **Rəfail Həsənov -** Keys-stadi metodunun nəzəri təhlili. Beynəlxalq elmi-prakti konfransın materialları.31 may 2021. Səh.185-186<br>3. **Hörmət Cavadova** - Cəmiyyətin mənəvi həyatının şəxsiyyətin sosiallaşmasında rolu.Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Pandemiya dünya ölkələrinin sosial-iqtisadi inkişafına təsiri problemləri.Beynəlxalq elmi-praktik konfransın materialları.31 may 2021,səh.214-216<br>4. **Haşımova Südabə** - Mesleki kimlik, bireyin (şahsiyetin) mesleki gelişiminin belirleyici ve karakteristik temeli gibi // – "Toplumsal Deyişim ve İnovasyon" mövzusunda VII. Uluslararası TURKCESS-2021 Egitim ve Sosyal Bilimler Kongresi KKTC (Yüz yüze ve Online), – Kıbrıs: – 01-03 Eylül, – 2021, – s.254-255. https://2021.turkcess.net/wp-content/uploads/2021/09/15-09-TURKCESS-2021-OZET-KITABI.pdf |
| **8** | **Mövzu üzrə tezislər**<br>*Müəlliflərin ad və soyadlarıtam şəkildə yazılmalı:*<br>*Tezisin dərc olunması, çapa qəbul olunması və ya çapa göndərildiyi qeyd olunmalı;*<br>*Tezislərin surətləri hesabata əlavə edilməli və mənbənin internetdəki linki göstərilməlidir.* |
| | 1. **Yagut Əliyeva -** "Toplum dönüşümü ve küreselleşme sürecinde insani değerlerin yeniden değerlendirilmesi ve bunun Azerbaycan toplumuna yansimasi". **İNCES-2020**.*(International Congress of Science Culture and Education).* 29 oktyabr - 02 noyabr 2020-ci il. "**Bilim, Kültür, Sağlık ve Spor Kongresi"** onlayn konfrans. Türkiyə, Alanya, 2020. **S.27**.**Beyn.Konf.Tezis**. https://books.incescongress.com/publication-bilim-kultur-saglik-ve-spor-kongresi-abstracts-book-38.html (2020-ci ilin ETİ hesabatında olmayıb)<br>2. **Yagut Əliyeva-** "**Здоровье как важный фактор и качественная характеристика в формировании личности детей(на примере Азербайджанской Республики**.**IX.SADAB-2021.** 25-27 iyun 2021-ci il. Türkiyə, Antalya. 2021. s.19. "Özet Bildirileri Kitabı" ***/Beyn.Konf.Tezis/***. https://sadabsempozyum.org/sadabantalya/wp-content/uploads/2021/07/SADAB-ANTALYA_2021b_Abstract-Book_08.07.2021-2.pdf<br>3. **Yagut Əliyeva-** "**Çocukların Kişiliğinin Oluşumunda Sosyal Eşitsizliğin ve Ana Paydaşların Rolü (Azerbaycan Cumhuriyeti örneğinde)"** / "**Роль социального неравенства и основных стейкхолдеров в формировании личности детей (на примере Азербайджанской Республики)**". **VII.TURKCESS-2021.** (*VII. International Symposium on Educational and Social Sciences).* 01-03 sentyabr 2021-ci il tarixində Şimali Kipr Türkiyə Dövlətində /KKTC/ "Toplumsal Değişim ve İnnovasyon" adlı "7.TURKCESS Eğitim ve Sosyal Bilimler Kongress"i Kıbrıs Sağlık ve Toplum Bilimleri Universitetində təşkil olunmuş konfrans hibrit (onlayn/ənənəvi) keçirilmişdir.KKTC. 2021. "Özet Bildirileri Kitabı".**s.256-257*./Beyn.Konf.Tezis/.***https://2021.turkcess.net/wpcontent/uploads /2021/09/15-09-TURKCESS-2021-OZET-KITABI.pdf<br>4. **Yagut Əliyeva-** "**Öğrenci Gençlerin Bir Şahsiyet ve Uzman Olarak Oluşumlarında Bilişsel Aktivitenin Rolü ve Etkisi (Sosyolojik Analiz)" / "Роль и** |

| | |
|---|---|
| | **влияние познавательной активности студенческой молодёжи в их формировании как личности и специалиста (социологический анализ)". VII.TURKCESS-2021.** (*VII. International Symposium on Educational and Social Sciences).* 01-03 sentyabr 2021. "Özet Bildirileri Kitabı". **s.258-259. */Beyn.Konf.Tezis/.*** https://2021.turkcess.net/wp-content/uploads/2021/09/15-09-TURKCESS-2021-OZET-KITABI.pdf<br>5. **Yagut Əliyeva- "Azerbaycan Toplumunun Gelişimi ve Eğitim Sisteminin Yapısal, İşlevsel ve Yönetim Reformlerin Gerekliliği: Sistematik Analiz".** 21-23 iyun 2021-ci il tarixində Türkiyənin Alaniya şəhərində Akdeniz Universiteti, Selcuk Universiteti və s. birgə "Bilim, Kültür ve Eğitim" adlı **3.İNCES-2021**(3.International Congress of Science Culture and Education) onlayn Beynəlxalq konfrans keçirilmişdir. Türkiyə, Alanya, 2021. Özet Bildirileri Kitabı**. s.12. Beyn.Konf.Tezis.** https://books.incescongress.com/ publication-international-congress-of-academic-research-and-practice-abstracts - book-44.html<br>6. **Yagut Əliyeva "Çocukların Kişiliğinin Oluşumunda Sosyal Eşitsizliğin Rolü (Azerbaycan Cumhuriyeti Örneğinde)".** 21-23 iyun 2021-ci il tarixində Türkiyənin Alaniya şəhərində Akdeniz Universiteti, Selcuk Universiteti və s. birgə "Bilim, Kültür ve Eğitim" adlı **3.İNCES-2021***(3.International Congress of Science Culture and Education)* onlayn Beynəlxalq konfrans keçirilmişdir.Türkiyə, Alanya, 2021. Özet Bildirileri Kitabı**. s.13. *Beyn.Konf.Tezis.*** https://books.incescongress.com/publication-international-congress-of-academic-research-and-practice-abstracts-book-44.html<br>7. **Yagut Əliyeva-"Çocukların kişiliginin oluşumunda önemli bir faktör ve niteliksel bir özellik olarak sağlığın etkisi (Azerbaycan Cumhuriyeti Örneğinde)".** 21-21 oktyabr 2021-ci il tarixində Türkiyənin Alaniya şəhərində Akdeniz Universiteti, Selcuk Universiteti və s. birgə "**Bilim, Kültür ve Eğitim Kongresi"4.İNCES-2021***(4.International Congress of Science Culture and Education)*hibrit **(**onlayn/ənənəvi) konfrans keçirilmişdir.Türkiyə, Alanya, 2021. Özet Bildirileri Kitabı**. s.72. *Beyn.Konf.Tezis*.** https://books.incescongress.com/publication-international-congress-of-science-culture-and-education-abstracts-book-45.html<br>8. **Yagut Əliyeva-"The space and role of sociology of education theories in the optimization of education system and the personality formation"** / **"eğitim sisteminin reformu ve optimizasyonunda ve kimliğin oluşumunda eğitim sosyolojisinin yeri ve rolü"**. 29-31 oktyabr 2021-ci il tarixində **X.SADAB-2021.International Conference on Social Researches and Behavioral Sciences /** X.Uluslararasi Sosyal Araştirmalar Ve Davraniş Bilimleri Sempozyumu**sosyal Araştırmalar & Davranış Bilimleri Dergisi ve Calal-Abad Devlet Üniversitesi'nin ev sahipliğinde, Batum Devlet Denizcilik Akademisi (Gürcistan), Tuzla Universitesi (Bosna-Hersek),** Saint Andrew the First-Called Georgian University (Gürcistan) **ve Farabi Devlet Üniversitesi (Kazakistan) işbirliyi** ilə online konfrans keçirilmişdir. Türkiyə, Antalya. 2021.Çapda."Özet Bildirileri Kitabı. **/Beyn.Konf.Tezis/**. https: //sadabsempozyum.org /sadabantalya / wp-content/uploads/2021/10/SADAB-ANTALYA-2021.Program-2.pdf |

| | |
|---|---|
| 9 | **İxtiraçılıq, patent-lisenziya fəaliyyəti və səmərələşdirici təkliflər**<br>*Məlumatlar nümunədə göstərilən qaydada daxil edilməlidir.* |
| | **Yoxdur** |
| 10 | **Mövzu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar)**<br>*Məlumatlar nümunədə göstərilən qaydada daxil edilməli, sədr, təşkilatçı və ya iştirakçı olması göstərilməlidir.* |
